

# BU YAZ BİR BAŞQA YAZDIR...

## *yaxud Yaqub müəllimin 80 yaşına təbrik*

***Hörmətli Yaqub müəllim!*** Siz Azərbaycan cəmiyyəti üçün kifayət qədər açıq, ziyalı, siyasətimizin səmimiyyət obrazı kimi (özü də, səmimi olmağın çox çətin dövrlərində) xalqımızın yaddaşına yazılmısınız. Yaddaşa yazılmaq nə bir toplumun, nə də şəxsin özünün iradəsi ilə mümkün olan fenomen deyil. Bu fenomenin gücü orasındadır ki, xalq onun kimliyini qavrayır və yaddaşında zaman-zaman qoruyur.

Əlbəttə, istər elm, istər təhsil təşkilatçısı, istərsə də aparıcı siyasi xadim kimi həyatımızın ən önəmli məqamlarını yada salmaq, dəyərlər uğrunda mübarizədə nələrlə qarşılaşdıqlarınızın hamısının fonunda kimliyinizi göstərən faktları yada sala bilərdik. Rektor, AMEA-nın müxbir üzvü, Milli Məclisin sədri, Prezident səlahiyyətlərinin icraçısı və s. kimi fəaliyyətiniz haqqında hər kəs kifayət qədər məlumatlıdır.

Qısaca bir-iki məqama diqqət etmək istərdim. Mən Sizin Azərbaycanın müstəqilliyi uğrundakı mübarizə dövründə yaşadığınız həyatı iki od arasında gördüm. Ona görə gördüm deyirəm ki, mən dövrün şahidiyəm. İfrat radikallar, ifrat kommunist mühafizəkarlar arasında Siz axıracan ziyalı mövqeyinizi, səmimiyyətinizi qorudunuz. Həmin böhranlı zamanlarda qarşıdurmaların, fikir döyüşlərinin savaşa çevrilməsinə yol vermədiniz. Bu savaş baş versəydi, xalqımız daha betər bəlalara tuş gələrdi.

İndi Sizin 80 yaşınız tamam olur. Bu, mükəmməl bir ömürdür. Və "Mən də yaşamışam" deməyə haqqınız var.

Mən Sizin timsalınızda Azərbaycanı sevənlərin obrazını görürəm... Vətən onu sevənləri asanlıqla unutmur. Tanrı Sizi qorudu və Siz Qarabağın işğaldan azad olunmağını gördünüz, xalqımızla birgə sevindiniz.

İndi dövlət səviyyəsində siyasi - ali siyasi rəhbərlik səviyyəsində çox böyük islahatlar aparılır. Həqiqətlər, doğrular ən azı mənəvi olaraq haqqını alır. Düşünürəm ki, Siz də iki od arasından ləyaqətlə keçmiş elm və siyasət xadimi kimi dövlətimizin, ali siyasi rəhbərliyin diqqətində olarsız.

Hörmətli Yaqub müəllim - AMEA-nın müxbir üzvü Yaqub Məmmədov, Sizi 80 illik yubileyiniz münasibətilə təbrik edirik.

***Əli Rza XƏLƏFLİ***
***02.03.2021***

Kredo 2021.- 3 mart.- S.1.